**Vilyam Şekspir:**
***Həyat teatrdı,***
***insanlar aktyor***

# Oyun və ya üçüncü artıqdır

## (Psixoloji hekayə)

**Onların dostluğu bir təsadüfdən başlamışdı...**

Həmişə olduğu kimi həyətdə uşaqlar ucadan qışqıra-qışqıra futbol oynayırdılar. Ruslan da kənarda dayanıb onların oynuna tamaşa edə-edə iki üç il bundan qabağı xatırlayırdı. O da öz yaşıdları ilə hər gün dərsdən gələn kimi top qovalayardı. Amma indi universitetdə psixologiya ixtisasi üzrə birinci kurs tələbəsi idi. Boş vaxtlarında müntəzəm idman məşqlərinə gedir, üzgüçülüklə məşğul olurdu. Günü-gündən kişiləşirdi, sinəsi enlənmiş, əzələləri geyindiyi nazik köynəyinə iz salırdı. Təzəcə buraxdığı qısa saqqal və nazik bığ onu çox yaraşıqlı göstərirdi. Digər oğlanlar kimi, o da qızların diqqətini çəkməsi ilə gizlincə fəxr edirdi.

***(Əvvəli ötən sayımızda)***

Ruslanın yadına psixologiyadan mühazirədə məhəbbətlə bağlı lektorun söylədiyi fikirlər düşdü: "Dostluqda məhəbbət güclənəndə sevgiyə, əksinə sevgidə məhəbbət azalanda dostluğa çevirilir". Bunu nəzərdə tutub:

- Əlbəttə, əgər qızla dostluqda məhəbbət güclənirsə, o sevgiyə çevrilir.

- Bəs onda oğlanla dostluqda məhəbbət güclənsə, sevgiyə çevrilə bilər?

Ruslan Fəridin söhbəti hara apardığının fərqində olmadığından, bu sualı gözləmirdi. Nə deyəcəyini bilmədi. Çevrilib Fəridin üzünə baxdı. Fərid başını aşağı salıb yerə baxırdı. Amma onun üzünü görməsə də Ruslan onun qızardığını, həyəcandan əsdiyini çox aydın sezirdi. O, Fəridin halından heç bir şey anlamadı. Özü də dəqiq cavabını bilmədiyi bu suala cavab verməyə cəhd etdi...

-Yox, çevrilməz. Çünki iki oğlan arasında dostluqda məhəbbət heç vaxt güclənmir.

Dərhal da özü özünün yalanını çıxardı. Ürəyində Fəridlə olan dostluq tarixçəsini xəyalından keçirdi. Təsadüfi adi bir tanışlıqdan başlayıb, illərlə davam edən dostluqlarında bir-birinə məhəbbətləri demək olar ki, hər gün güclənmişdi. İndi bir birini o qədər sevirdilər ki, hətta bir-biri üçün ölümə belə hazır idilər.

- Niyə? Nə fərqi var? Necə olur ki, qız həm dost, həm sevgili ola bilir, amma oğlan yox?

Ruslan psixologiyadan öyrəndiyi seksuallıqla bağlı məsələləri beynindən keçirdi. Əslində, o, Fəridə homoseksualizm haqqında nəsə demək istədi. Amma fikrindən daşındı. Ümumiyyətlə, söhbətin bu istiqamətdə inkişafı heç onu açmırdı. Sonra kobudluqla:

- Fərqi çoxdur, qızla sevgi meyvə verir, oğlanla sevginin meyvəsi olmur. Səncə, kim meyvəsiz ağac bəsləyər?

Ruslan öz kəşfindən razı qaldı. Doğrudan da, axı qızla sevgi sonda dünyaya üçüncü bir adamın gəlməsinə səbəb olur. Bəlkə də buna görədir ki, oğlanla sevgi mümkün deyil.

Fərid əl çəkmirdi. Dostunun psixologiyadan bilikli olmasını bəhanə gətirib, sualı sual dalınca verirdi. Elə bil Ruslanla aralarındakı münasibəti təhlil edib, hansısa həqiqəti üzə çıxarmağa cəhd edirdi:

- Yaxşı, bəs onda sonsuz qadını sevmək olar? Ya da başqa adamın uşağını övladlığa götürəndə, niyə bunu ancaq qızla sevgidə etmək olar, oğlanla yox?

Ruslan bu dəfə başqa arqument gətirdi:

-Qızla sevgi normaldır, oğlanla sevgi anormal.

-Yaxşı, onda niyə cəmiyyətdə başqa anormallıqlara dözümlə yanaşırlar. İki eyni cinsdən olan arasındakı anormal münasibətə yox?

-Çünki biri təbiidir, o biri qeyri-təbii.

-Nə olsun, indi hər yerdə geni dəyişmiş məhsullar istehsal edirlər, insan kopyalanır, qeyri-cinsi hüceyrələrdən nəsil alınır. Biz sintetik mühitdə yaşayırıq. Sən deyirdin ki, insan təbiətdən ayrıldıqca əsl insana çevrilir. Onda qeyri-təbiilik bizim insaniliyimizin təzahüri deyil?

Ruslan Fəridin bir-birinin ardınca verdiyi suallara cavab tapa bilmirdi. Həm bəzi sualların cavablarını bilmirdi, həm də bu mövzuda Fəridlə danışmaq ona xoş gəlmirdi. Elə bil Fəridin onun gizlətdiyi hansısa sirri açacağından qorxurdu. Axırda:

- Belə söhbətlərin nə mənası var? Onsuz da kim necə istəyir, elə yaşayır da. Sadəcə, cəmiyyət buna pis baxır, çünki din qadağan edir, mentalitetimizə ziddir.

Fərid indi yarı istehza, yarı ciddi:

-Yaxşı, başqa dinə keçib, başqa mentaliteti qəbul etsən, onda necə? Məsələn, Avropada necə olur ki, hətta eyni cinsdən olanların evlənməsini qanunilәşdirirlər?!

-Avropada təkcə belə qanun yoxdur. Orda ümumiyyətlə ailə "ukladı" bizimkindən fərqlidir. İndi onlarda kontrakt ailə institutuna keçilib. Həm də cəmiyyət özü belə əlaqələri normal qəbul edir.

-Onda onların cəmiyyəti nəyə görə qeyri-təbii olanları qəbul edir, bizimki yox?

Ruslan artıq əsəbləşirdi:

- Çünki onlarda, çoxluq belə əlaqələri xoşlayır.

- Belə çıxır ki, bizdə də belə münasibətlər çoxalsa qanuniləşəcək?

-Mən nə bilim. Bizdə hec vaxt çoxalmaz. Bizim öz xüsusi dəyərlərimiz var.

-Bəs onda niyə başqa məsələlərlə bağlı universal dəyərləri müdafiə edirik?

Ruslan əsəbiliklə:

-Fərid, xahiş edirəm bu söhbəti qurtaraq. Bunun bizə nə aidiyyəti var? Bu nə söhbətdir, salmısan? Bir də, belə şeylərdən danışmağı mən xoşlamıram.

> Ruslan Fəridlə bağlı ən kiçik bir hadisəyə qeyri-adi güclü reaksiya verir, ona müxtəlif bəhanələrlə hədiyyələr almaqdan zövq alırdı. Özünə Fəridin gözü ilə baxır, ona xoş gəlsin deyə özünə əl gəzdirirdi. Elə bil Fəridə xoş gəlmək üçün öz-özü ilə yarışırdı. Hətta bir neçə dəfə Fəridlə uzun müddət küsülü qaldığı vaxtlarda axşam yatanda onu yadına salıb xeyli vaxt ağlamışdı da...

Fərid özünü arsızlığa qoyub şit-şit güldü:

-Qorxdun başına gələr?

Ruslan Fəridin bu sözlərindən diksindi. Özünü bilməməzliyə qoyub, inamsızlıqla "Mənim səndən başqa dostum yoxdur, olmayacaq da. Ona görə, başıma gələ bilməz", - dedi.

Fərid istədi Ruslana desin ki, "bəlkə elə mənimlə bağlı başına gələcək", amma özünü saxladı. Ruslanın ondan şübhəyə düşəcəyindən çəkindi.

Ruslan ürəyində özü də öz dediyinə inanmadı. Psixologiyadan seksuallıqla bağlı oxuduqları, əslində, onun dediklərini təkzib edirdi. Əslində, o, son aylar Fəridlə aralarında formalaşan münasibətin xarakterini və bir-birinə olan qarşılıqlı məhəbbəti psixoloji olaraq izah edə bilmirdi. Xüsusən son vaxtlar Fəridlə görüşəndə və ayrılanda onunla öpüşməkdən özünü saxlaya bilmirdi. Bir yerdə olanda Fəridin ona sıxılıb başını sinəsinə qoymağından, Fəridin saçlarını qoxlamaqdan qeyri-adi həzz aldığını, bədəninin hərarətləndiyini qeyri-adi bir hal kimi dəyərləndirirdi. Hətta o, Fəridin saçlarından gələn və onun ağlını başından çıxaran qoxuya öz-özündə ad da qoymuşdu: "Məhəbbət ətri". Amma bunu dostluq məhəbbəti kimi yozmuşdu.



Ruslan Fəridlə bağlı ən kiçik bir hadisəyə qeyri-adi güclü reaksiya verir, ona müxtəlif bəhanələrlə hədiyyələr almaqdan zövq alırdı. Özünə Fəridin gözü ilə baxır, ona xoş gəlsin deyə özünə əl gəzdirirdi. Elə bil Fəridə xoş gəlmək üçün öz-özü ilə yarışırdı. Hətta bir neçə dəfə Fəridlə uzun müddət küsülü qaldığı vaxtlarda axşam yatanda onu yadına salıb xeyli vaxt ağlamışdı da. Ruslan başa düşürdü ki, Fəridə olan münasibəti dostluq çərçivəsindən çoxdan çıxıb, amma onun hansı çərçivəyə daxil olduğunu anlamırdı, bəlkə də anlamaq istəmirdi. Fərid də elə bil Ruslanın duyğularını hiss edir və özü düşünülmüş şəkildə ona qarşılıq verirdi. Yol gedəndə çox vaxt ya Ruslanın əlindən tuturdu, ya da əlini onun çiyninə qoyurdu, bir yerdə oturanda ona sığınır, onun bədəninin hərarəti ilə qızışmaqdan zövq alırdı, Ruslanın əlini öz boynuna dolayırdı. Ruslanın əli təsadüfən onun belinə dəyəndə bunun əbədi davam etməsini istəyirdi. Hətta bir dəfə Ruslan bu hərəkətlərlə bağlı ona demişdi:

-Kənardan baxan elə bilər biz sevgililərik. Belə davranışlar bir-birini sevən oğlan-qız arasında olur.

Fərid də:

-Mənə xoşdur. Kim necə başa düşür düşsün...

Əslində, doğrudan da onları sevgililərdən seçmək çətin idi.

İncəsənət institutunda oxumağını bəhanə edən Fərid oğlanlara xas olmayan rəngli paltarlar geyinməyə, uzun saç saxlamağa üstünlük verirdi. Hərəkətlərində artistlik edib bəzən qız roluna girir, Ruslanla zarafatlaşırdı.

Bir dəfə Ruslangilin valideynləri rayona getmişdi. O, tək qalmamaq üçün Fəridi onlarda qalmağa razı salmışdı. Axşam yatanda Fərid nədənsə onunla bir çarpayıda yatmaq istəmişdi. Ruslan da buna etiraz etməmiş və yataqlarını ikinəfərlik çarpayıda salmışdı. Gecə yarı yuxudan ayılanda Fəridin onu qucaqlayıb şirin yuxuya getdiyini görmüşdü. Əvvəl onu özündən ayırmaq istəməmişdi, amma bunu fürsət bilib, əksinə, onu bir az da özünə sıxmışdı, qəribə hisslər keçirməyə başlayanda isə dərhal ondan aralanmış və çarpayının kənarına çəkilib yuxuya getmişdi. İndi də Fəridin bu mənasiz sualları onsuz da ağlı qarışmış Ruslanın düşüncələrini bir az da dolaşdırırdı.

Fərid dayanmaq bilmirdi:

-Yaxşı, insan həm biri ilə dost ola-ola, başqa biri ilə də sevişə bilər?

-Əlbəttə, niyə də olmasın?!

-Bəs deyirlər ki, üçüncü artıdır. Onda əgər sən bir qızla sevişəcəksənsə, sənlə necə bir yerdə olacağıq?! Deməli, mən artıq olacağam da.

*Ruslan heç bu sualı düşünməməmişdi.* Doğrudan da, əgər özünə bir qız sevgili tapsa və onu dərin məhəbbətlə sevsə, onda bu gün Fəridə həsr etdiyi vaxtı ona həsr etməlidir. Deməli, Fəridlə əlaqələrini zəifləməlidir:

-Yox, mən belə düşünmürəm. Hərənin öz yeri var. Bir də, başqalarını deyə bilmərəm, sən mənim üçün heç vaxt artıq olmayacaqsan..

Fərid:

-İnanmıram. Necə deyərlər, qoyunun yoxdur, biçağın itidir. Hələ sevdiyin qız yoxdur. Baxaq görək, sevməyə başlayanda yenə belə deyəcəksən. Məni unudub, onunla sevişməyəcəksən?

Ruslan dinmədi. Çünki deyəcək söz tapmadı. Həm də cavab verdikcə, Fərid söhbəti daha da dərinləşdirirdi. Bunun yaxşı nəticə verməyəcəyindən narahat olmağa başlayırdı. Ruslan qətiyyətlə üzünü Fəridə tutub dedi:

-Xahiş edirəm, bu mövzuda bir daha mənimlə danışma.

-Niyə? Nədən qorxursan? Bunun bizə aidiyyəti yoxdur ki, elə belə vaxt keçirmək, həm də bəzi şeyləri özüm üçün aydınlaşdırmaq istədim. Dediklərimi zarafat kimi qəbul et, unut getsin. Söz, bir də bu haqda səninlə heç nə danışmayacağam.

Ruslan söhbətin məcrasını dəyişmək məqsədi ilə sual vermək təşəbbüsünü ələ aldi:

-Yaxşı, gəl sənin ixtisasından danışaq. Məsələn, rol nədir? Sosial rolla səhnədəki rolun nə fərqi? Bir roldan başqasına keçmək asandır, yoxsa çətin? Sən hansı rollarda oynamaq istərdin?

Fərid Ruslanın söhbətdən qaçmaq niyyətini anladı. Amma onun verdiyi suallara cavabları elə vermək istəyirdi ki, başladıqları söhbətin davamı kimi olsun.

***(Ardı var)***

**AZAD**